**E.QARAGÖZOVA**
*filologiya üzrə fəlsəfə doktoru*
*e-mail: e.garagozova.bsu@gmail.com*

DOI:10.48652/b4692-2502-1391-t

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**
(Bakı şəh., H.Cavid pr., 31)

# XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA ƏDƏBİ CƏRƏYANLAR: SENTİMENTALİZM, TƏNQİDİ REALİZM VƏ SOSREALİZM

***Açar sözlər:*** *sentimentalizm, tənqidi realizm, sosrealizm, Azərbaycan ədəbiyyatı, ədəbi cərəyanlar*
***Ключевые слова:*** *сентиментализм, критический реализм, соцреализм, азербайджанская литература, литературные течении*
***Key words:*** *sentimentalism, critical realism, socialist realism, Azerbaijani literature, literary movements*

XX əsr Azərbaycan ədəbiyyatı yalnız bədii mündəricəsinə görə yox, müxtəlif ədəbi meyl və cərəyanların əksi baxımından da çox zəngindir. Bu tarixi dövrdə baş verən ictimai-siyasi hadisələr ədəbiyyatın formalaşmasına təsirsiz ötüşməmiş, onun inkişaf yollarında müəyyən fərqli və spesifik məqamların meydana çıxmasına rəvac vermişdir. XX əsr Azərbaycan ədəbiyyatının ilkin dövründə, əsrin əvvəllərində ədəbiyyatımızda aparıcı cərəyanlar tənqidi realizm, romantizm, sentimentalizm idi. Həmin dövrdə digər cərəyanların da izləri ədəbiyyatımızda müşahidə edilirdi. Lakin bu cərəyanların estetikasına aid məqamların ədəbi mətnlərdə əksi fraqmentar xarakter daşıyırdı. 1920-ci ildə Azərbaycanın Sovet İmperiyası tərəfindən işğalından sonra ədəbiyyatda aparıcı cərəyan sosialist realizmi – sosrealizm elan edildi. Bu araşdırmada biz sentimentalizm, tənqidi realizm və sosrealizm cərəyanlarının Azərbaycan ədəbiyyatında təzahürünə diqqət yetirəcəyik.

**Sentimentalizm.** XVIII əsrin II yarısında meydana çıxan sentimentalizm cərəyanı klassisizm cərəyanına əks mövqeni, bu cərəyanın kanonlarına etirazı özündə ehtiva edirdi. Klassisizm tələblərinin, çərçivələrinin sərtliyinə, öz inkişafında artıq psevdoklassisizm mərhələsinə qədəm qoyduğuna, sırf elitar, aristokratik ədəbiyyata çevrildiyinə görə yeni çağın aparıcı qüvvəsinə çevrilməkdə olan orta təbəqənin tələblərinə cavab verməkdə aciz idi. Klassisizmin antik ədəbiyyatdan bəhrələnən qəhrəmanları, süjetləri artıq oxucunu cəlb etmirdi. Bu kontekstdə yaranan sentimentalizm sadə insanları, onların cari həyatını, məişətini, duyğularını, təbiət təsvirlərini, psixoloji məqamları ədəbiyyata gətirdi.

Bəzən sentimentalizmi romantizmlə eyniləşdirirlər. Lakin bu iki cərəyana məxsus əsərlər təsvir və obraz elementləri baxımından oxşar görünsələr də, mahiyyət və ideyaca tam fərqli nümunələrdir. Romantizmin əsas obyekti qəhrəman, sentimentalizmin obyekti isə duyğulardır. Bu iki cərəyanın qəhrəmanları xarakter baxımından da fərqlənirlər. Sentimental qəhrəman xeyirxah və sadə olduğu halda romantik qəhrəman melanxolik və mürəkkəbdir. Məhəbbət sentimental qəhrəmanı mənəvi baxımdan xilas edir, romantik qəhrəman isə məhəbbətin qurbanına çevrilir. Azərbaycan ədəbiyyatında Əbdül (A.Divanbəyoğlu) və Arif (H.Cavid) obrazları sentimentalizmlə romantizmin səciyyəvi qəhrəmanları kimi bu sadaladığımız xüsusiyyətləri simvollaşdırırlar.

Dünya ədəbiyyatşünaslığında A. Grenet, C. Jodry, L. Guilhamet, J. Barkhausen, J. Mullan, P. Orlov, M. Trinskaya sentimentalizmin nəzəri əsasları ilə bağlı araşdırmaların müəllifi kimi tanınırlar. Azərbaycan ədəbiyyatşünaslığında sentimentalizmin tədqiqindən söz açdıqda isə ilk xatırlanan imza mərhum ədəbiyyatşünas professor Hüseyn Həşimlidir. Onun 1990-cı ildə dərc olunmuş “Ədəbiyyat nəzəriyyəsi kursunda sentimentalizm ədəbi cərəyanının öyrədil-

məsi" adlı metodik göstərişi bu cərəyanın Azərbaycan ədəbiyyatşünaslığında tədqiqi sahəsində atılan ilk addımlardandır. Hüseyn Həşimli daha sonralar bu sahədə tədqiqatlarını davam etdirərək "Azərbaycan ədəbiyyatında sentimentalizm" (1998) adlı sanballı araşdırmasını elmi ictimaiyyətə təqdim etmişdir. Bu cərəyanla bağlı nəşr edilmiş tədqiqatlar sırasında Baba Babazadənin "Azərbaycan sentimentalizmi" (2003) monoqrafiyasını da göstərə bilərik.

Qərb və Rusiya ədəbiyyatından fərqli olaraq Azərbaycan ədəbiyyatında sentimentalizm cərəyanı öz ifadəsini, əsasən, XX əsrin əvvəllərində yaranan bədii nümunələrdə tapmışdır. "Ədəbiyyatımızda S.M.Qənizadə, A.Divanbəyoğlu, İ. Musabəyov, N.Bəsir, C. Cabbarlı və başqalarının yaradıcılığında təzahür edən sentimentalizm" (H.Həşimli) A.Divanbəyoğlunun yaradıcılığında daha aydın və ardıcıl şəkildə izlənir. "Duman", "Fəhlə", "İlan", "Ərdoy dərəsi", "Cəng", "Dan ulduzu", "Can yanğısı", "Əbdül və Şahzadə" əsərlərinin müəllifi olan Abdulla bəy Divanbəyoğlu, həm də tariximiz, folklorumuzla bağlı materialları toplayaraq tədqiq etmiş, ömrünün sonuna qədər elmi və pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Abdulla bəy Divanbəyoğlunun "Əbdül və Şahzadə" və "Can yanğısı" əsərləri Azərbaycan ədəbiyyatında sentimentalizmin kanonlarının tədqiqi üçün önəmli bədii mənbə rolunda çıxış edir.

"Əbdül və Şahzadə" povestinin əsas qəhrəmanı Əbdül sentimentalizmin qəhrəman konsepsiyasına – duyğularla dərk edən və başqalarının dərdlərini anlayıb əzab çəkən insan obrazına tam uyğundur. Povestin əsas atributları sentimetal göz yaşları və ölüm səhnələridir. Cəmiyyətin duyğulara düşmən kəsilməsinə etiraz edən Əbdülün əmisi qızı Şahzadə ilə məhəbbəti də insanın qəlbini heçə sayan bu qaragüruhun qurbanı olur.

Sıradan insanların duyğularını, fundamental mənəvi dəyərləri, sadə həyatı təsvir edən Qərb sentimental romanlarından fərqli olaraq A. Divanbəyoğlunun əsərində bütün bu sadalanan keyfiyyətlərlə yanaşı maarifçilik ideyaları, qadın azadlığı problemi əsas xətt kimi vurğulanır. Əsər boyu Əbdülü məşğul edən əsas problem qadınların duyğularının cəmiyyət tərəfindən diqqətə alınmaması və bunun doğurduğu problemlərdir: "Əbdül tətil günlərini evdə keçirirdi. Hər şey onun xoşuna gəlirdi, ancaq bir şey – qadınların kişilər qarşısında cəsarətsizliyi, utancaqlığı, hətta çəkinməyi və qorxması onu təşvişə salırdı." (1, s. 36) Bu cəhət sentimentalizm cərəyanının Azərbaycan variantının əsas fərqləndirici keyfiyyətlərindəndir. Sentimentalizmin maarifçilik və qadın azadlığı ideyaları ilə tandemdə yaranan bu milli variantı tarixi şəraitdən, milli-mənəvi keyfiyyətlərdən qaynaqlanır. Əsərin Əbdüllə Sonanın sevgisi ilə bitməsi isə sentimentalizmin qəhrəmanın məhəbbətlə xilası ideyasının bədii ifadəsi kimi təzahür edir.

Abdulla bəy Divanbəyoğlunun "Can yanğısı" povestinin də əsas mövzusu duyğuların əsarətinin və qadın hüquqsuzluğunun gətirdiyi faciələrdir. Əsərin əsas xəttini namus ləkəsini təmizləyib qaçaq düşən Əhmədin kənddə rast gəlib sevdiyi Ruqiyyə ilə məhəbbəti təşkil edir. Böyük məhəbbətlə bir-birinə bağlanan cütlük şəhərə köçdükdən sonra əsərin kulminasiya nöqtəsi başlayır. Şəhər mühiti Əhmədin xarakterindəki gizli, mənfi məqamların aşkara çıxmasına şərait yaradır. Onun Ruqiyyəyə olan sevdası uzaq bir xatirəyə çevrilir. Əhmədin dönüklüyü, onun üstünə günü gətirməsi Ruqiyyənin dərddən çərləyib ölməsinə, Əhmədin isə peşman olaraq dərviş həyatına qədəm qoymasına səbəb olur. Sentimental kanona uyğun olaraq təsvir olunana əzab, ölüm və peşmanlıq triadası fonunda qəhrəmanın duyğu təkamülü problemi önə çəkilir: "Dərviş bir dua zikr etdi və sonra dedi:

– Böylə bir gurultu onda – Ruqiyyə can verəndə də oldu. O gurultu mənim canıma elə bir fəna qorxu salıbdır ki, əvvəl gurultu canıma vahimə salır, amma sonra bərkişəndə qorxu çıxır... Ruqiyyə məni belə gündə qoydu, canını xilas etdi. Canımda yanğı, qəlbimdə yanğı, könlümdə yanğı, gözlərimdə yaş qoyub getdi... Ruqiyyə öldü, köhnə eşq, köhnə məhəbbət oyandı..." (1, s.181)

"Can yanğısı" povestində sentimentalizmin əsas kanonlarından daha biri – qəhrəman-şəhər təzadı da öz əksini tapmışdır. Bu cəhət də sentimentalizmi romantizmdən fərqləndirən əsas keyfiyyətlərdəndir. Romantizmdə qəhrəman cəmiyyətə qarşı qoyulursa, sentimentalizm-

də əsas antaqonist ünsür şəhərdir. Bu səbəbdən də Əhmədlə Ruqiyyənin məhəbbətinin həzin sonu məhz qəhrəmanların şəhərə köçməkləri ilə bağlıdır.

Abdulla bəy Divanbəyoğlunun yaradıcılığı sentimentalizmin əsas keyfiyyətlərini özündə ehtiva etməklə yanaşı cərəyanın Azərbaycan modelinin əsas keyfiyyətlərini – maarifçi-didaktik ünsürləri və dövrün çağırışlarını – qadın azadlığı məsələsini əks etdirir.

**Tənqidi realizm.** XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında realizmin növbəti mərhələsi – tənqidi realizm epoxası hakim mövqedə idi. Əsasında sənətin həyata obyektiv baxışı dayanan realizmin təşəkkül etaplarında bu münasibət öz kəskinlik dərəcəsinə görə fərqlənir. Erkən realizmdə bu münasibətin məğzini reallığın təsviri, maarifçi realizmdə isə reallığın redaktəsi təşkil edir. Tənqidi realizm etapında artıq maarifçiliyin (oxu: redaktənin) qarşısında aciz qaldığı məqamların tamamilə dəyişdirilib yenidən qurmaq cəhdi meydana çıxır. 1920-ci illərə qədər, yəni sosrealizm hakim cərəyan elan edilənədək ədəbiyyatımızda aparıcı olan bu cərəyanın nümayəndələri, əsasən, “Molla Nəsrəddin” satirik jurnalının ətrafında birləşmişdilər. Akademik İsa Həbibbəyli yazır: “ “Molla Nəsrəddin” jurnalı tənqidi realizmin ədəbi cəbbəxanasını təşkil edirdi. Ona görə də tənqidi realizm ədəbi cərəyanı ilə “Molla Nəsrəddin” ədəbi məktəbi anlayışları eyni mətləbi ifadə edir.” (4, s. 90)

“Molla Nəsrəddin” jurnalı ideya və məzmun baxımından dövrünün qabaqcıl nəşri, müasir təbirlə desək, “neo jurnal” idi. Jurnalın adı, tərtib prinsipləri, bölmələri qarşıya qoyulan ideyaya – cəmiyyəti qəflətdən ayıltmağa yönəlməklə bərabər dövrün oxucusunun psixologiyasına və zövqünə də hesablanmışdı. “Molla Nəsrəddin” jurnalının yaranması haqqında danışılarkən çox zaman Cəlil Məmmədquluzadənin “Xatiratım” əsərinə əsaslanaraq onun Tiflisdə çıxan “Kukureku” jurnalından təsirləndiyi danılmaz fakt kimi qeyd olunur. Qulam Məmmədli isə “Molla Nəsrəddin” salnaməsində bunu doğru olmadığını söyləyir və fikrini faktlarla əsaslandırır: “1906-cı ilin əvvəllərində “Vozrojdenye”, “Baku”, “Həyat”, “Novoye obozreniye”, “Kavkazskoye utro”, “Tərcüman”, “İrşad” və digər qəzetlərin Naxçıvan ziyalılarından Cəlil Məmmədquluzadənin Tiflisdə “Molla Nəsrəddin” adlı şəkilli yumorostik-satirik jurnal çıxaracağını xəbər verdikləri zaman “Kukureku” jurnalı hələ yox idi və Mirzə Cəlil olmayan jurnalı görüb, onu nümunə kimi götürə bilməzdi.” (5, s.68)

Cəlil Məmmədquluzadənin yaratdığı jurnal mükəmməl bir proyekt idi. “Molla Nəsrəddin” jurnalı ətrafında birləşən ədiblər – Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz Şəbüstəri, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi və digərləri dövrün əsas bəlalarını, cəmiyyəti və xalqı inkişafdan saxlayan məqamları xalqın öz dilində, sadə bir təhkiyə ilə işıqlandırırdılar. Əzim Əzimzadə, Oskar Şmerlinq və İosif Rotterin çəkdiyi karikaturalar isə savadsız insanların belə jurnalla maraqlanmasına, dərginin xalq məhəbbəti və populyarlıq qazanmasına rəvac verirdi. Bu səbəbdən ilk satirik jurnal olsa da, “Molla Nəsrəddin” tənqidi realizmin ən kəskin silahına və qərargahına çevrilə bildi.

Jurnalın yaradıcısı Cəlil Məmmədquluzadə öz bədii yaradıcılığı ilə də Azərbaycan tənqidi realizm modelinin banisi mövqeyində çıxış edir. Ədibin yaradıcılığının əsas xəttini milli şüurun oyanışı təşkil edirdi. Cəlil Məmmədquluzadə yaradıcılığına nəzər saldıqda tənqidi realizm üçün xarakterik olan obyektivlik, tipiklik, konflikt, detallara enmə, bədii dilin sadə danışıq dilinə yaxınlaşdırılması, cəmiyyətin inkişaf tempinə və tendensiyalarına əlahiddə maraq diqqəti cəlb edir.

Cəlil Məmmədquluzadə öz obrazlarını cəmiyyətin alt qatlarından götürür, onların detallı təsvirini verir. Əgər Cəlil Məmmədquluzadə mətnlərindən hadisələri çıxarıb ancaq təsvirləri saxlasaq belə, yenə əsərin ideyasına heç bir xələl toxunmaz. Xudayar katdanın xarici görünüşü, onun danışığı, bitlənməsi oxucuda ona qarşı neqativ münasibət formalaşdırır. Novruzəlinin xana pərəstişkəranə müraciəti, öz balalarının boğazından kəsib xana gətirdiyi sovqatın tərkibi, görkəmi onun xarakterini əks etdirir. “Anamın kitabı”ndakı üç qardaşın geyiminin və otaqlarının təsviri isə onların insan kimi mahiyyətini və Vətənə münasibətlərini anlamaq üçün kifayətdir.

Maarifçi realistlərdən fərqli olaraq tənqidi realistlər passiv təbliğat xarakterli monoloqlar deyil, sərt realist səhnələr vasitəsilə cəmiyyətin oyanışına nail olmağa çalışırdılar. Cəlil Məmmədquluzadə üslubunun özəlliyi onun sərt realist səhnələri təsvir etməklə yanaşı cəmiyyətin bu faciələrə biganəliyini də ustalıqla vurğulamasındadır. Ədib öz mətnlərinə ironik bir çalar qatır, hadisələri həmin cəmiyyətin üzvlərindən birinin anlayacağı tərzdə nəql edir. Məhz bu səbəbdən "Danabaş kəndinin əhvalatları"nda Məmmədhəsən əmi və Zeynəbin bu qədər tragik bir həyat yaşaması qanunauyğunluq kimi görünür. "Ölülər" cəmiyyətin ən böyük faciəsini ifadə etsə də, müəllif onu komediya adlandırır və əsərin yeganə mənəvi cəhətdən ayıq obrazı İsgəndər daim keflidir.

Bu gün Cəlil Məmmədquluzadənin ədəbiyyatımıza gətirdiyi obrazlar artıq arxetipə çevrilməkdədir. Kəndli Novruzəli, Usta Zeynal, Katda Xudayar, Danabaş kəndi, Məmmədhəsən əmi müəyyən əsərlərin obrazları çərçivəsindən çıxaraq öncə idioma çevrilmiş, daha sonra isə arxetipik motivlər kimi ədəbiyyatımızda işlənməyə başlamışlar. Müasir Azərbaycan ədəbiyyatında Orxan Fikrətoğlunun Xeybər obrazı, Səfər Alışarlının "Üç xanım" hekayəsi Cəlil Məmmədquluzadə üslubunun bu gün də yaşadığının bariz sübutudur.

**Sosrealizm.** Sosrealizm XX əsrin ədəbi cərəyanları içərisində məkan məhdudiyyəti və siyasi-avtoritar mənşəyi ilə seçilən cərəyan kimi ədəbiyyatşünaslığa daxil olmuşdur. Məkan məhdudiyyəti bu cərəyanın sırf keçmiş SSRİ və sosializm ideyasının dəstəkləndiyi ölkələrdə rəvac tapmasından qaynaqlanırdı. Siyasi-avtoritar mənşəyi isə cərəyanın müəyyən, qapalı bir siyasi rejimin ideologiyasının əsas atributlarından birinə çevrilməsinə və həmin rejimlə assosiasiya olunmasına gətirib çıxarmışdır. Tarixin göstərdiyi kimi məkan məhdudiyyəti və siyasi-avoritar mənşə bu cərəyanın zaman baxımndan da məhdud çərçivədə inkişafına və qəfil bitməsinə səbəb oldu. Cərəyanların mahiyyəti və genezisi ilə bağlı apardığımız bugünəqədərki araşdırmalarımıza əsasən cərəyanın dalğavari proses olduğunu deyə bilərik. Fikrimizcə, ədəbi cərəyanın inkişaf spektrini simvolik olaraq süjetin elementləri ilə ifadə etmək mümkündür. Hər bir cərəyan ədəbi qanunlara uyğun şəkildə ilkin, kulminasiya və sönmə fazalarından keçir. Bəli, cərəyanın sönmə fazası uzunmüddətli ola, müəyyən elementləri növbəti cərəyanla qarışaraq müəyyən bir müddət varlığını qoruyub saxlaya bilər. Lakin istənilən halda bu sönmə mütləqdir və ən əsası ədəbi qanunların təbiətinə uyğun şəkildə baş verir. Lakin sosrealizm cərəyanı ədəbi deyil, siyasi mənbədən qaynaqlandığı, plan əsasında, proyekt şəklində yaradıldığı üçün rejimin bitməsi cərəyanın da sönmə fazasını tam keçmədən qəfil ədəbi gündəmdən silinməsi ilə nəticələndi.

Sosialist realizmi ideoloji sifarişə əsaslanan ədəbiyyat olduğundan "ədəbiyyatın partiyalılığı" dövrün tələbi və əksər hallarda əsərin işıq üzü görə bilməsinin yeganə yolu idi. Sosrealizm ədəbiyyatı əslində olanı deyil, olması gərəkəni əks etdirirdi. Bu səbəbdən sosrealizm sosial realizmdən daha çox sosial utopiyaya yaxın idi. Lakin ideologiya bu ədəbi cərəyanın romantik sosial utopiya şəklində deyil, sxematik sosial utopiya formasında olmasını tələb edirdi. İdeologiyanın tələb etdiyi sxematikliyin, quruluğun, şüar xəttinin bədii həllini ədəbiyyatımızda ən gözəl şəkildə Sara Oğuz təqdim etmişdir. Sara Oğuzun müstəqillik illərində qələmə aldığı "Beton evdən yazılar" povestinin qəhrəmanı sosrealizmin təmsilçilərinin ironik şəkildə təsvir edilmiş prototipidir. Əsərin qəhrəmanı bütün əsərlərini sözün əsl mənasında çərçivələr cədvəlinə əsasən qurur: əvvəlcə çərçivə çəkilir, daha sonra onun əsasında cansız, ruhdan məhrum "sənət əsəri" yaradılır. "Böyük və məşhur heykəltəraş" təsadüfən çərçivələr cədvəlinə diqqətsiz yanaşanda, "cızığından çıxanda" konfuz yaşanır, onun yaratdıqlarını sistem qəbul etmir: "Min həngamə ilə poladəridən gəlib çıxdı at sarayının qabağına. Burda məlum oldu ki, at sarayının darvazası "Poladəridən"ə dardı. Ümumiyyətlə, ölkədə bu monumentin sığacağı qapı yoxdur. Bədbəxtçiliyin yekəliyinə bax. Sən demə, çərçivələr cədvəlini quranda ölçülərini dəyişib böyütmüşəm. Odur ki, başıma bu müsibət gəlib. Ay mənim zay başım! Gör nəyin ölçüsünə biganə qalmışam? Çərçivələr cədvəlinə, güzəranamızın təməl daşına yaradıcı yanaşmaq fikrinə düşmüşəm. Ay mənim zay başım!" (6, s. 45). Təsadüfi deyil ki, obrazın

örnək aldığı "çərçivələr cədvəli"ni ona məhz hərbi hissədə qulluq edərkən komandiri olmuş zabit öyrətmişdi. Əsərində kütləvi mədəniyyət anlayışını obrazın vasitəsilə guya lakonik, əslində isə ironik şəkildə "kütmədəniyyət" adlandıran Sara Oğuz bu elementlə sosrealizmin əsas keyfiyyətlərini vurğulamağa nail olmuşdur. Dəqiqlik, əmrə tabelik, lakoniklik, sərtlik, çərçivə daxilində fəaliyyət göstərmək kimi keyfiyyətlər rejimin ədəbiyyata tətbiq etmək istədiyi və ondan gözlədiyi özəlliklər idi.

Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslığının 70 ilə yaxın, SSRİ ilə bağlı olan dönəmi sosrealizm cərəyanının hakim olduğu ədəbi arealın bir hissəsidir. Dövr "sovet ədəbiyyatı dövrü" adlandırılsa da, həmin zaman çərçivəsində fəaliyyət göstərən ədiblərin hamısı sırf sosrealizm ədəbi cərəyanını təmsil etmirdilər. Bəli, dövrün və rejimin tələbinə uyğun olaraq bədii mətnlərdə sovet ideologiyasına uyğun elementlərin əksi mütləq idi. Lakin sırf sosrealizm ədəbi cərəyanın təmsilçiləri özəl bir pleyada təşkil edirdilər. Həmin pleyadanın və dövrün parlaq ədəbi imzalarından biri Süleyman Rəhimovdur. Onun "Şamo", "Saçlı" romanları, "Məhtəban", "Mehman", "Kəsilməyən kişnərti" povestləri, müxtəlif səpkili hekayələri Azərbaycan sosrealizminin tanınan nümunələridir. Elçinin "Sosrealizm bizə nə verdi" monoqrafiyasında qeyd etdiyi kimi "....biz sosrealizmin XX əsr Azərbaycan ədəbiyyatının inkişafına vurduğu zərərdən qətiyyən sərf-nəzər etməməli, həmin ədəbi zərərin nəticəsində itirdiklərimizi müəyyənləşdirməli və bu boşluqları doldurmağa çalışmalıyıq. Eyni zamanda, sosrealizm dövründə Azərbaycan ədəbiyyatının inkişafı bu ədəbiyyatın tarixində çox mühüm və prinsipal mərhələ təşkil edir və biz bunu da görməli, tədqiq etməli, elmi-nəzəri təsnifatını verməli, əldə edilmiş bədii-estetik dəyərləri qiymətləndirməyi bacarmalıyıq." (2, s.57)

XX əsr Azərbaycan ədəbiyyatının əsas simalarından olan Süleyman Rəhimovun yaradıcılığı nəinki qeyd edilən dövrün, ümumən Azərbaycan ədəbiyyatı tarixinin ədəbi tendesiyalarının öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu kontekstdən baxdıqda Süleyman Rəhimovun yaradıcılığını və Azərbaycan ədəbiyyatında yerini aşağıdakı qısa tezislərlə vurğulaya bilərik:

1. Süleyman Rəhimov yaradıcılığı sosialist realizminin – sosrealizmin ədəbi kanonlarının bədii təzahürünün bariz, diqqətəlayiq nümunələridir. Onun yaradıcılığı sosrealizmin bir ədəbi cərəyan kimi tədqiqi üçün yetərli, spesifik bədii mənbədir.

2. Süleyman Rəhimov "Şamo" əsəri ilə Azərbaycan ədəbiyyatında roman-epopeya janrının seçilən nümunəsini meydana qoymuşdur.

3. Süleyman Rəhimovun "Şamo", "Saçlı", "Mehman" əsərləri dövrün, sosrealizmin tələblərini ümumi, sxematik şəkildə təsvir etməklə mədudlaşmır. Əsərlərin adından da göründüyü kimi yazıçının əsas diqqət yönəltdiyi, vurğulamaq istədiyi məqam tarixin keşməkeşlərindən keçən İNSAN-dır.

4. Süleyman Rəhimovun mövzu dairəsi yalnız sosrealizmin tərənnümü ilə bağlı deyil. Onun folkor süjetləri və motivləri əsasında qələmə aldığı "Güzgügöl əfsanəsi", "Arpaçay əfsanəsi", "Gülən balıq", "Ovqan və ilan", "Kəsilməyən kişnərti" əsərləri yazıçının yaradıcılığında mühüm möqeyə malikdir. Bu əsərlərdə yazıçının yazı manerası, bədii dili, ümumən yaradıcılığı fərqli aspektdən açılaraq sosrealizm çərçivələrini aşır.

5. Süleyman Rəhimovun əsərlərində milli-etnoqrafik məqamların təzahürü onun yaradıcılığını sırf sosrealizmin tərənnümü kimi qəbul etməyə imkan vermir. Yazıçı istifadə etdiyi ifadələr, ibarələr, deyimlər, təsvir etdiyi etnoqrafik lövhələrlə milli-etnik məqamları vurğulamağa, əsərin canlı həyat lövhəsi kimi qavranılmasına nail olur.

Beləliklə, Süleyman Rəhimovun əsərləri proyekt xarakterli, siyasi ideologiyaya əsaslanan bir cərəyanı təmsil etsə də, ədəbiyyat tariximizin bəlli dövrünün və sosrealizmin Azərbaycan modelinin öyrənilməsi üçün əhəmiyyətlidir.

## Ədəbiyyat


1. Divanbəyoğlu A.. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 36 s.
2. Elçin. Sosrealizm bizə nə verdi? – Bakı: "Mütərcim", 2010.
3. Ədəbiyyat nəzəriyyəsi kursunda sentimentalizm ədəbi cərəyanının öyrədilməsi (Mətn): Metodik göstəriş /Hazırlayan. Y.İ.Axundov, H.M.Həşimov; Red. S.İ.Vəliyev; Rəyçi. İ.Ə.Həbibov, N.B.Orucəliyev; Y.H.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu. Bakı: 1990, 26 s.
4. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı: Elm, 2019
5. Məmmədli Q. Molla Nəsrəddin salnaməsi, Naxçıvan: Əcəmi, 2009
6. Oğuz S. Beton evdən yazılar. Bakı: Yazıçı, 2014.


**Э.Гарагозова**

**Литературные течении в азербайджанской литературе XX века: сентиментализм, критический реализм и соцреализм**

***Резюме***

Азербайджанская литература XX века очень богата не только своим художественным содержанием, но и отражением различных литературных течений. Общественно-политические события, происходившие в этот исторический период, не остались незамеченными в становлении литературы и способствовали возникновению определенных отличий и специфических моментов в ее развитии. В азербайджанской литературе начала XX века ведущими течениями были критический реализм, романтизм, сентиментализм. В то время в нашей литературе наблюдались следы и других течений. Однако отражение эстетики этих направлений в художественных текстах было фрагментарным. После оккупации Азербайджана Советской империей в 1920 году ведущим направлением в литературе был объявлен социалистический реализм - соцреализм. В данном исследовании мы сосредоточимся на проявлениях сентиментализма, критического реализма и соцреализма в азербайджанской литературе.

**E.Garagozova**

**Literary movements in Azerbaijani literature of the XX century: sentimentalism, critical realism and social realism**

***Summary***

Azerbaijani literature of the 20th century is very rich not only in its artistic content, but also in the reflection of various literary movements. The socio-political events that took place during this historical period did not go unnoticed in the formation of literature and contributed to the emergence of certain differences and specific moments in its development. In Azerbaijani literature of the early 20th century, critical realism, romanticism, and sentimentalism were the leading trends. At that time, traces of other currents were observed in our literature. However, the reflection of the aesthetics of these trends in literary texts was fragmentary. After the occupation of Azerbaijan by the Soviet Empire in 1920, socialist realism was declared the leading trend in literature. In this study, we will focus on the manifestations of sentimentalism, critical realism and socialist realism in Azerbaijani literature.

*Rəyçi: prof. R.M.Qeybullayeva*

*Redaksiyaya daxil olub: 16.05.2022*